Elm və İnnovativ Texnologiyalar Jurnalı Nömrə 25, 2023. 70-79
DOI: 10.30546/2616-4418.25.2023.70

# XX ƏSRİN 20-Cİ İLLƏRİNDƏ AZƏRBAYCAN HÜQUQİ FİKRİNDƏ İQTİSADİ MƏSƏLƏLƏRİN ƏKSİNƏ DAİR

**Zənfira QULİYEVA**
*Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Bakı, Azərbaycan*

## Giriş

Azərbaycan hüquqi təfəkkür və hüquq elminin dərin kökləri vardır. "Avesta", "Kitabi Dədə" və s. kimi tarixi yazılı abidələr milli təfəkkürümüzün ən qədim dövrlərdəki inkişaf xüsusiyyətləri və səviyyəsi barədə tutarlı məlumatlar verməkdədir. Daha bir maraqlı fakt kimi qeyd olunmalıdır ki, hələ XIII əsrin sonu-XIV əsrin əvvəllərində Təbriz darülfünunda hüquq (fiqh) elminin tədrisinə xüsusi önəm verilirdi. Azərbaycan qədim şərqin önəmli mədəniyyət mərkəzlərindən biri kimi bütünlükdə müsəlman şərqində mütərəqqi ideyaların yaranması və yayılması ocaqlarından biri kimi dəyərləndirilməlidir və bu gündə ümumbəşəri dəyərlər kontektindən baxdıqda həmin missiyanın daşıyıcısıdır.

BY NC ND

Lakin XX əsrin 20-ci illərində Azərbaycan milli təfəkkürü, ictimai-siyasi, hüquqi-fəlsəfi və iqtisadi dünyagörüş sistemi ciddi təzyiqlərlə qarşı qarşıya idi. Sözügedən illərdə iqtisadi dünyagörüş birbaşa olmasada vasitəli şəkildə milli maraqların qorunması yollarının axtarışında idi. Həmin illərdə iqtisadi məfkurənin inkişaf xüsusiyyətlərinin öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir.

## Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsində təsərrüfat praktikasının müxtəlif aspektli məsələlərinin təhlil və şərhinə dair

XX əsrdə Azərbaycanda hüquqi fikrin inkişafında Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin rolu böyük olmuşdur. Qeyd etmək lazımdır ki, Bakı Dövlət Universitetinin Hüquq fakültəsi 1927-ci ildə Şərq fakültəsinin şöbəsi kimi yaradılmış, 1928-ci ildə müstəqil hüquq fakültəsinə çevrilmişdir. Fakültənin ilk dekanı prof. A.O.Mişel olmuşdur. Fəaliyyət göstərdiyi müddətdə fakültə minlərlə yüksək ixtisaslı hüquqşünas kadr yetişdirmiş, respublikanın hüquqmühafizə orqanlarını, dövlət və hökumət qurumlarını hüquqşünas kadrlarla təmin etmişdir. Hüquq fakültəsi respublikada hüquq elminin inkişafında və hüquq üzrə elmi-pedaqoji kadrların hazırlanmasında əsas aparıcı mərkəz kimi fəaliyyət göstərmişdir. Fakültənin əsas elmi tədqiqat sahələri: dövlət və hüquq nəzəriyyəsi və tarixinin problemləri; siyasi və hüquqi nəzəriyyələr tarixi; Konstitusiya hüququ; bələdiyyə hüququ; inzibati hüquq; maliyyə hüququ; mülki hüququn problemləri; cinayət və cəza məsələləri və s. ilə əlaqədar problemlərin araşdırılması təşkil edirdi. Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin tarixini bir neçə dövrə bölmək olar. 1) 1919-cu ildə hüquq fakültəsinin açılmasının uğursuz cəhdi, 2) Şərq fakültəsinin hüquq şöbəsinin təşkili, 3) hüquq şöbəsinin hüquq fakültəsinə çevrilməsi, 4) Hüquq fakültəsinin müstəqil fəaliyyəti, 5) Hüquq fakültəsinin universitetdən kənarda fəaliyyəti (1930-1941-ciillər), 6) Hüquq fakültəsi müharibə dövründə, 7) Hüquq fakültəsinin müharibədən sonrakı illərdəki fəaliyyəti.

Bizim diqqətimizi XX əsrin 20-30-cu illərdə hüquq fakültəsinin Azərbaycan iqtisadi fikrinin inkişafına təsiri məsələləri ilə əlaqədar bəzi gerçəkliklər cəlb edir. Qeyd etmək lazımdır ki, Azərbaycan Dövlət Universitetinin 1926-cı ildə şərqşünaslıq fakültəsinin tərkibində yeni etnoloji, 1927-ci ildə isə hüquq bölmələri yaradıldı. Hüquq bölməsi Azərbaycan və rus dillərində məhkəmə və inzibati təsərrüfat şöbələrindən ibarət olub əvvəlcə hüquq sektoru kimi mövcud olmuşdur. Hüquq sektorunda dövlət və hüquq nəzəriyyəsi, hüquq fəlsəfəsi, dövlət hüququ, mülki hüquq, ticarət-sənaye hüququ, beynəlxalq hüquq, cinayət hüququ kafedraları yaradılmışdı (Səlimov1965: 61 ). Daha sonra Hüquq bölməsi 1928-ci ildə müstəqil fakültəyə çevrilir və tərkibində cinayət və inzibati–təsərrüfatçılıq bölmələri fəaliyyət göstərirdi. Həmin illərdə Hüquq fakültəsinin aparıcı kafedralarından biri kimi Mülki hüquq kafedrası təsərrüfatçılıq mexanizmlərinin hüquqi prosedurlarının müəyyənləşdirilməsi istiqamətində ciddi işlər aparırdı. Daha sonra 1930-cu ildə bu

fakültənin bazasında Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi yanında Sovet Quruculuğu və Hüquq İnstitutu yaradılmışdı. Sonralar Bakıda İctimai-İqtisadi İnstitutu yaranır (1933-cü ildən etibarən K.Marks adına Xalq Təsərrüfatı İnstitutu) və onun tərkibində hüquq fakültəsinin təşkili ilə əlaqədar Sovet Quruculuğu və Hüquq İnstitutu ləğv olunur (Səlimov 1965: 61).

Daha bir maraqlı fakt kimi qeyd edilməlidir ki, 1930-cu ildə Azərbaycan Dövlət Darülfününün hüquq şöbəsinin inzibati-təşkilat şöbəsi iqtisad fakültəsinə çevrilir. Sözügedən fakültə 3 kursdan ibarət idi (Kommunist, 1930, №29).

Qeyd etmək lazımdır ki, Hüquq fakültəsində iqtisadi profilli kafedralar da fəaliyyət göstərirdi. Bunlar aşağıdakılardı:

1) "Təsərrüfat məişəti tarixi (İctimai formasiyalar tarixi)" kafedrası- 1 oktyabr 1928-ci il tarixindən etibarən kafedraya N.N.Pçelin rəhbərlik edirdi. 2) "Təsərrüfat hüququ " kafedrası –kafedraya dosent F.V.Dyakov rəhbərlik edirdi. 3)"Ticarət-sənaye hüququ" kafedrası -1929-cu il avqustun 1-dən kafedraya K.K.Yaiçkov rəhbərlik edirdi. 4) "Statistika" kafedrası 1927- ci il noyabrın 2-dən etibarən kafedraya dossent İ.F.Blinov rəhbərlik edirdi.

20-30-cu illərdə hüquqi ədəbiyyatlarda təsərrüfatçılıq məsələlərinə dair küllü miqdarda elmi məqalələr nəşr olunurdu. Bu xüsusda öncə diqqəti "V.İ.Lenin adına Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin hüquq bölməsinin Xəbərləri cəlb edir. 1928-ci ildən "V.İ.Lenin adına Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin hüquq bölməsinin Xəbərləri" dərc edilməyə başladı və bu ad altında 3 buraxılışı dərc edildi. Jurnal professorlar A.O.Mişelin və Q.Qubaydulinin redaktəsi ilə dərc edilmişdi. Daha sonra dərgi "Azərbycan Dövlət Universitetinin hüquq fakültəsinin Xəbərləri " başlığı ilə dərc edilməyə başladı. Bu isə onunla əlaqədar idi ki, 1927-ci ildə Bakı Dövlət Universitetinin Şərq fakültəsinin şöbəsi kimi yaradılmış Hüquq bölməsi, 1928-ci ildə müstəqil hüquq fakültəsinə çevrilmişdi. Fakültənin ilk dekanı prof. A.O.Mişel olmuşdur. Sözügedən jurnalda 20-ci illər Azərbaycanın siyasi, iqtisadi və hüquqi fikrinin inkişaf səviyyəsinin öyrənilməsinə imkan yaradan bir çox dəyərli əsərlər dərc edilmişdir. L.Berin jurnalda dərc edilən məqaləsində pulun insan cəmiyyətində rolu, funksiyaları və bir çox iqtisadi cərəyanların pul ilə əlaqədar nəzəri mühakimələrini dəyərəndirmişdir. L.Berin yazırdı ki, əvvəllər müxtəlif xalqlarda müxtəlif əşyalar mübadilə vasitəsi kimi istifadə edilirdi. Buna misal olaraq duz, balıq, tütün, heyvan dəriləri, mal-qara, dəniz balıqqulaqları, qızıl-gümüş və s. göstərilirdi. Daha sonra O, yazırdı ki, öz sosial məzmununa uyğun olaraq pul insan cəmiyyətində müxtəlif funksiyalar yerinə yetirir. Bu funksiyaların hər biri eyni zamanda tarixi kateqoriya kimi çıxış edir. Bu funksiyalar kimi 1) dəyər ölçüsü, 2) dövriyyə vəsaiti, 3) dəyərin saxlanılması 4) ödəniş vəsaiti, 5) dünya pulu olması göstərilir. Daha sonra tədqiqatçı dünya xalqlarının natural təsərrüfatdan əmtəə pul münasibətlərinə keçidi prosesinin tarixi, pulun cəmiyyətdə rolu ilə əlaqədar monetarist, nominalist və xüsusən də kəmiyyət nəzəriyyələrinin müddəalarını

qiymətləndirmişdir. Tədqiqatçı yazırdı ki, pul kəmiyyəti nəzəriyyəsinin müddəalarının tətbiqi praktiki olaraq fiaskodan başqa heç nəyə gətirib çıxarmayıbdır (Berin 1928: 52-70) .

Qeyd etmək lazımdır ki, bu dərgidə formalaşmaqda olan sovet hüquq elminin kriteriyaları baxımından iqtisadi tənzimlənmənin hüquqi məsələlərinin dəyərləndirilməsi ilə əlaqədar bəzi fikirlər səslənilməkdə idi. Bu xüsusda M.K. Korbutun "Müzdlu əməklə əlaqədar çar qanunvericiliyi (Korbut 1928:28-43) , prof N.Polyanskinin "Azərbaycan SSR-in Cinayət Məcəlləsində vergi cinayətləri" (Polyanski 1928: 44-56), F.V.Dyakovun "Əkin sahələrinin kontraktasiyasının hüquqi və iqtisadi təbiəti" (Dyakov 1928:57-84) , N.Pçelinin "Azərbaycanda mülkiyyət hüququ məsələsinə dair" (Pçelin 1929: 125-129), K.Yaiçkovun "Təsərrüfat-inzibati hüququ məsələlərinə dair" (Yaiçkov 1929:113-123)məqalələri dərc edilmişdi .

Yaiçkov məqaləsində yazırdı ki, sosializmin irəliləməsi ilə əlaqədar hüquq elmində yeni bölmənin yaranması labüd olmuşdur. "Təsərrüfat –inzibati hüququ " ticarət və ticarət –sənaye hüququnu əvəz etməli və xüsusi predmet kimi universitetlərdə tədris olunmalıdır. O, qeyd edirdi ki, sovet qanunvericiliyində müstəqil ticarət, sənaye kodeksi mövcud deyildir. Lakin Yeni İqtisadi Siyasət dövründə xüsusi ticarət kodeksinin yaradılması zərurəti meydana çıxdı. 1923-cü ildə ticarət qanunları toplusunun layihəsi hazırlansa da bu layihə qüvvəyə minmədi. Buna da səbəb sovet hüquqi fikrində sənaye və ticarət fəaliyyətinin tənzimlənməsini nəzərdə tutan müddəaların mülkü hüququn predmeti kimi qavranılması olmuşdur (Yaiçkov 1929:113-116) . Yaiçkov yazırdı ki, inzibati-təsərrüfat hüququnun predmeti xalq təsərrüfatının sosialist sektorunda münasibətlərin tənzimlənməsidir. Buraya xalq təsərrüfatının sosialist sektorunun təşkili prinsipləri, dövlət müəssisələri, trestlər, sindikatlar, səhmdar cəmiyyətləri, kooperasiyalar və maliyyə-kredit sahəsində iqtisadi təzahürlər, xalq təsərrüfatı hüququnun inkişaf tarixi, xüsusi sahibkar, fərdi və kollektiv müəssisələrinin hüquqi təbiəti, bazarın və ticarət sövdələşmələrinin hüquqi təşkili, ticarətə təsir edən birja-bazar-yarmarkanın qarşılıqlı əlaqələri ilə bağlı məsələlər daxildir. Lakin bazar mübadiləsinin tipik təzahürləri hesab edilən alqı-satqı, yüklərin daşınması, bank sövdələşmələri, veksellər, əmlakın sığortalanması və bu kimi məsələlər daxil deyildir. Tədqiqatçı bu kimi məsələləri mülkü hüququn predmeti kimi dəyərləndirmişdir (Yaiçkov 1929:120).

N.Pçelin "Azərbaycanda mülkiyyət məsələsinə dair" məqaləsində XİX əsr Azərbaycanında mülkiyyət məsələləri ilə əlaqədar apardığı araşdırmalarda diqqətəlayiq fikirlər irəli sürmüşdür. N.Pçelin yazırdı ki, Azərbaycan bəyləri hər vəchlə sübut etməyə çalışırdılar ki, onların sərəncamında olan torpaqlar əbədi mülkiyyətdən heç nə ilə seçilmir. Tədqiqatçı Qubaydulinə istinadən yazırdı ki, sözügedən tədqiqatçı tamamilə başqa məqsədlər güdür, çünki o, feodalizmlə, feodal qaydaları ilə torpaq mülkiyyətinin sıx əlaqədə olması fikrində idi. Qubaydulinin, İslam qayda qanunlarının olduğu cəmiyyətdə feodalizm mümkündürmü sualına

verdiyi cavabla razılaşmayaraq belə qənaətə gəlmişdir ki, Azərbaycanda feodalizmin mövcudluğunu sübut etmək üçün heçdə burada hansısa mülkiyyət formasının mövcudluğunu sübut etməyə ehtiyac yoxdur. Çünki mülkiyyət anlayışı hər zaman özü-özünə adekvat olan anlayış deyildir və onun mahiyyətini əsaslandıran təminatçılara ehtiyacı olan anlayışdır. Belə olan halda feodal mülkiyyətinin mövcudluğunu sübut etmək üçün feodalizmin mövcudluğunu sübut etməyə ehtiyac var. Daha sonra tədqiqatçı yazırdı ki, müasir marksist iqtisadi fikrində mülkiyyət anlayışı fərqli mövqelərdən dərk edilməkdədir. Belə olan təqdirdə tədqiqatçı onun üçün başlıca tədqiqat obyektinin mülkiyyətin deyil, torpaq –mülkiyyəti münasibətləri olduğunu göstərirdi. Marksist və İslamşünas alimlərin mühakimələrinə istinad edən tədqiqatçı "özünəməxsus asiya istehsal üsulu" barədə mühakimələr səsləndirirdi. Bu istehsal üsulunun başlıca xüsusiyyəti kimi torpaq mülkiyyətinin ümummilli səviyyədə təmərküzləşməsi, formal olaraq torpaq mülkiyyəti üzərində xüsusi və icma mülkiyyətçiliyi formaları olmasa da faktiki olaraq həm xüsusi, həmdə icma mülkiyyəti formaların mövcudluğu göstərilirdi. Bu isə öz növbəsində dövlət feodalizmi kimi xarakterizə edilirdi. Daha sonra tədqiqatçı mülkiyyətin məzmununu təyin etməyə imkan verən iki başlanğıc amili üzərində dayanırdı. Bunlardan birinin zəhmət, digərinin isə hərbi işğal olduğu bildirilirdı. Bu isə cəmiyyətdə bir tərəfdən kollektiv və fərdi istehsal ilə məşğul olan istehsalçıların, digər tərəfdən isə zəbt və qarətlərlə yaranan istismarçıların yaranmasına gətirib çıxarır. Faktiki olaraq XIX əsr Azərbaycanında mülkiyyət formaları kimi icma mülkiyyəti-kapitalizmlə heç bir əlaqəsi olmayan, asiya istehsal üsulu üçün xarakterik olan, əmək mülkiyyəti, 2) Xan mülkiyyəti –zorakılıq mülkiyyəti, 3) Xalisə torpaqları-xanların bəylərə bağışladığı mülkiyyət, 4) xərac, malıcəhət ödəyən şərti mülkiyyət, 5) mülk-varislik yolu ilə nəsildən–nəsilə verilə bilən mülkiyyət, 6) Ancaq bir şəxsə ömürlük bağışlanan, vərəsəlik yolu ilə verilə bilməyən torpaq mülkiyyətləri formalarının mövcudluğu göstərilirdi N.Pçelin tərəfindən. O, hesab edirdi ki, bütün bu göstərilən torpaq mülkiyyəti formaları Asiya istehsal üsulu üçün xarakterikdir (Pçelin 1929:125-139) . N.Pçelin 1929-cu ildə nəşr etdirdiyi "XVII əsrdə Rusiyanın inkişaf tarixindən " adlı digər məqaləsində yazırdı ki, Romanovlar sülaləsinin ilk nümayəndələri –Aleksey və Pyotur dövrləri iqtisadçı-tarixçilər tərəfindən ticarət kapitalizmi, merkantilizm epoxası kimi xarakterizə edilir. Bu zaman cəmiyyətdə bir birinə zidd iki ünsürün paralel mövcudluğu diqqəti cəlb edir. Bir tərəfdən cəmiyyətin iqtisadi həyatında ticarət kapitalizmi, siyasi həyatında isə zadəganlar sinfinin hökmranlığı olduqca təzadlıdır. Bu isə ona gətirib çıxardı ki, Pyoturun cəhdlərinə baxmayaraq zadəganların cəmiyyətdə siyasi hökmranlığı, Rusiyanın kapitalizmin sonrakı inkişaf mərhələsinə daxil olmasını ləngitdi. Təbiidir ki, bu dövrün iqtisadi məzmunu xarakterizə edilərsə onu feodal cəmiyyəti kimi dəyərləndirmək olar. Çünki feodal qaydalarına əsasən dövlət ticarəti inkişaf etdirilir və kənddə icma torpaq mülkiyyəti forması böyük həssaslıqla son illərə qədər qorunmaqda idi. Ticarət kapitalizmi epoxasında Rusiyada "feodal zadəgan" zümrəsi, kənddə natural təsərrüfat hökmranlıq edirdi. Şəhərin kəndlə əlaqəsi istehsal əlaqələri olmayıb

feodalların iqtisadiyyata inzibatı üsullarla müdaxiləsinə əsaslanırdı (Pçelin 1929:234).

N.Polyanski " Azərbaycan SSR Cinayət Məcəlləsində vergi cinayətləri " məsələsi adlı digər məqaləsində yazırdı ki, maliyyə idarəsinin bütün işçiləri vergi ödəməkdən imtina edən və bu işə səhlənkar yanaşan vergi ödəməli olan şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsinin vacibliyi fikrindədirlər. Bu işi vergi ödəməli olan şəxslərin istəklərinin öhdəsinə buraxmaq olmaz. N.Polyanski yazırdı ki, məsələyə doqmatik və hüquqi siyasətin müddəaları baxımından yanaşmaq olar. Doqmatik bütün hüquqi vasitələrdən istifadə edərək qanunda nəzərdə tutulmuş müddəaların icrasına çalışacaqdır. Məsələyə hüquqi siyasət baxımından yanaşanlar çalışırlar ki, qanunların icrasında ölçülər gözlənilsin. Burada əsas məqsəd cəza deyil dövlətin maliyyə maraqlarının gözlənilməsidir. O, Azərbaycan qanunvericiliyində məsuliyyətə cəlb edilmə hallarını özündə ehtiva edən mövcud normaları 3 qrupa bölürdü. 1) Vergilərin ödənilməməsi, 2) Vergilərdən qəsdən boyunqaçırma, 3) Vergilərin düzgün müəyyən edilməsinə əngəl olan xüsusi qaydalara əməl etməmək halları.

Sözü gedən jurnalda F.V.Dyakovun "Əkin sahələrinin konraktasiyasının iqtisadi və hüquqi təbiəti" məqaləsi də diqqətəlayiq əsərlərdən biri kimi qeyd edilə bilər. Məqalədə tədqiqatçı yazırdı ki, sovet hüquq elminin məqsədləri nəinki yazılmış olan həmdə hələ yazılmayan lakin fəaliyyətdə olan qanunları öyrənməkdir. Mülkü kodeks 1922-ci ildə Qərbi-Avropa burjua ölkələrinin qanunlarından bəzi məsələləri əxz etməklə tərtib edilmişdir. Lakin 5 ildən sonra bu kodeks tələblərə cavab verməməkdədir. Nəinki hər il, hər mövsümdə yeni təsərrüfatçılıq formaları özünü büruzə verməkdədir. Əsərdə bu formalardan biri kimi kontraktasiya göstərilir. Maraqlı sual yarana bilər ki, kontraktasiya nədir ? Dyakovun şərhindən öncə bu anlayışın məzmununun elm ədəbiyyatlarda necə qavranılmasına diqqət yetirmək tələb olunur. İqtisadi ədəbiyyatlarda kontraktasiya iqtisadi agentlərin hüquqi münasibətləri kimi dəyərləndirilir və bildirilirdi ki, tərəflərdən biri kimi kənd təsərrüfatı məhsullarının istehsalçısı çıxış edir. İstehsalçı məhsulu onu emal edən tərəfə satmağı öhdəsinə götürür, digər tərəf isə məhsulun yerindəcə alınıb daşınmasını təmin edir (Abalkin 1999:315) . Sovet hüquqi ədəbiyyatlarında kontraktasiya müqavilələr əsasında dövlətin tədarük orqanları vasitəsi ilə öncədən kənd –təsərrüfatı məhsulların satınalması kimi şərh edilir. Burada kontarktasiyanın sovet cəmiyyətində müxtəlif illərdə XX-əsrin 30-cu daha sonra, 60-ci və hətta 80-ci illərdə fərqli formalarının mövcudluğu fikri səslənmişdir (Suxarçev1984: 103;Kudryavtsev: 510 ). F.V.Dyakov məqaləsində yazırdı ki, əkin sahələrinin becərilməsində kontarktasiya müstəsna əhəmiyyət daşıyır. Kontarktasiya nəhəng sosial sifariş kimi kənd təsərrüfatı məhsullarına olan istehlak və sənaye tələbatının ödənilməsinə xidmət edir. Kontaraktasiya inqilabaqədərki dövrdə də olmuş, bu zaman kommersiya məzmunu daşıyaraq, xırda və ortabab kəndlilərin hesabına alverçilərin varlanmasına xidmət edirdi. Sovet dövründə kontarktasiya sahibkarlıq məzmununu itirərək əmək öhdəliyi xarakteri daşımağa başlamışdır (Dyakov

1928:58-63). Kontarktasiya kənd təsərrüfatının sosialistcəsinə yenidən qurulmasına xidmət edən təsərrüfat üsulu kimi kəndlidə şəxsi mənafe hissinin kollektiv mənafe hissi ilə əvəz edilməsinə xidmət edir (Dyakov 1928: 84) . Qeyd etmək lazımdır ki, 30-cu illərin sonlarına doğru "kontraktasiya" əsasında kəndlilərlə dövlət arasında təsərrüfat əlaqələri müəyyənləşdirilirdi. Lakin kontraktasiyaların təbiətində bu zaman müəyyən keyfiyyət dəyişiklikləri baş vermişdi. Kontraktasiyalar icbarı xarakter daşıyıb, möhkəm təsərrüfat plan və öhdəliklərindən başqa bir şey deyildi (Kommunist 1938 №80).

## Nəticə

Fəaliyyət göstərdiyi müddət ərzində hüquq fakültəsi minlərlə yüksək ixtisaslı hüquqşünas kadrlar yetişdirmiş, respublikanın hüquqmühafizə orqanlarını, dövlət və hökumət qurumlarını hüquqşünas kadrlarla təmin etmişdir. Eyni zamanda XX əsrin 20-30-cu illərində Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsindəki iqtisadi yönmülü kafedraların əməkdaşları iqtisadi məsələlərlə də əlaqədar araşdırmalar aparmış, elmi əsərlər dərc etdirmişlər. Bu əsərlərdə bir sıra dəyərli fikirlər səslənmişdir.

## Açıqlama bəyanatı

Müəllif tərəfindən hər hansı potensial marağın toqquşması ilə bağlı məlumat verilməmişdir.

**Əlaqə**

**E-mail:** zemfira.quliyeva@asoiu.edu.az

## Ədəbiyyat :


“Kommunist” qəzeti, (1930) № 29, (1938), №80

İ.D.Səlimov, (1965), “Azərbaycan SSR Elmlər Akademiyasında hüquq elminin inkişafı”, “Azərbaycan SSR EA-sının Xəbərləri, İctimai elmlər seriyası, №3, s.60-69

Abalkin L.İ. (1999), “Ekonomiçeskaya ençikolopediya”, M. “Ençiklopediya”, 1999, 1055 s.

Berin T.L (1928), “Koliçestvennaya teoriya deneq”, “İzvestiya pravovoqo otdeleniya vostoçnoqo fakulteta Azerbaydjanskoqo Qosudarstvennoqo Universiteta imeni V.İ.Lenina, s.52-70

Dyakov F.V. (1928), Ekonomiçeskaya i pravovaya priroda konstataçii posevov”, “İzvestiya pravovoqo fakulteta Azerbaydjanskoqo Qosudarstvennoqo Universiteta imeni V.İ.Lenina”, s.57-84

Korbut M.K., (1928), “Çarskoye zakonodatelsvo o naemnom trude v selskom zoayaystve”, “İzvestiya pravovoqo fakulteta Azerbaydjanskoqo Qosudarstvennoqo Universiteta imeni V.İ.Lenina” s.28-43

Kudryavçev P.İ. (red) (1956), “Yuridiçekiy slovar”, M. “Yuridireskaya literatura”, t 1., 687 s.

Polyanskiy N. (1928), “Naloqovıe prestupleniya po UK ASSR”, “İzvestiya pravovoqo fakulteta Azerbaydjanskoqo Qosudarstvennoqo Universiteta imeni V.İ.Lenina”, Baku s. 44-56

Pçelin N. (1929), “ K voprosu o prave sobstvennosti v Azerbaydjane”, “İzvestiya pravovoqo fakulteta Azerbaydjanskoqo Qosudarstvennoqo Universiteta imeni V.İ.Lenina”, v V-VI s. 125-129

Pçelin N. (1929), “İz istorii ekonomiçeskoqo razvitiya Rosii v XVII v.”, “İzvestiya pedaqoqiçeskoqo fakulteta Azerbaydjansoqo Qosudarstvennoqo Universiteta imeni V.İ.Lenina”, (obşestvennıe nauki), t.xvı s.205-235

Suxarçev A.Y (red) (1984), “Yuridiçeskiy slovar”, M. “Sovetskaya ensiklopediya”, 415 s.

Yaiçkov K.K. (1929), “K voprosu xozyaystvenno-administrativnom prave” “İzvestiya pravovoqo fakulteta Azerbaydjanskoqo Qosudarstvennoqo Universiteta imeni V.İ.Lenina”, Baku, v V-VI, s. 113-123


**Məqaləyə istinad:** QULİYEVA Zənfira. XX əsrin 20-ci illərində Azərbaycan hüquqi fikrində iqtisadi məsələlərin əksinə dair.Elm və İnnovativ Texnologiyalar Jurnalı.Nömrə 25,2023.səh:70-79
DOI: 10.30546/2616-4418.25.2023.70

## SUMMARY

**Reflections of Azerbaijan legal thought economic issues in the 20- 30s of the XX century**

**Zenfira Quliyeva**
**Azerbaijan State Oil and Industry University (ASOIU), Baku, Azerbaijan**

20-es of the XX century legal thinking and legal institutions had been of a certain role in the development of economic thought in Azerbaijan. In this regard, it should be noted that the 20th century is also characterized as the period when the ideology of Azerbaijanis entered its maturity stage. Starting from the 20s, the idea and outlook of Azerbaijanis entered the serious phase of the war of existence.

It is from this point of view that the analysis of the characteristics of the development of ideas in those years is of particular importance. In this regard the attention of the Azerbaijan State University departments and their employees, economic activities, as well as articles in journals of the period presented published in the law faculty of the University of actual economic problems can be mentioned in connection with the opinions voiced.

***Keywords:*** Economic idea, legal idea, contracting, Asian method of production

## РЕЗЮМЕ

**Отражения экономических вопросов в Азербайджанской правовой мысли 20-ые годы XX века**

**Зенфира Гулиева**
**Азербайджанский Государственный Университет Нефти и Промышленности, Баку, Азербайджан**

20-ые годы XX века правовое мышления и правовые институты сыграли определенную роль в развитии экономической мысли. В этой связи следует отметить, что XX век также характеризуется как период, когда идеология азербайджанства вступила в стадию зрелости.Начиная с 20-х годов идея и мировоззрение азербайджанства вступили в серьезную фазу войны за существование. Именно с этой точки зрения анализ особенностей развития идей в те годы имеет особое значение. В этой связи привлекает внимание деятельность сотрудников Юридического факультета Азербайджанского Государственного Университета. Сотрудники Юридического факультета опубликовали статьи в журналах в которым отражались актуальные экономические вопросы.

***Ключевые слова:*** Экономическая идея, юридическая идея, контрактация, Азиатский способ производства